***ALİ MƏCLİSİN İCLASI***

*6 may 2026-cı il. Saat 11.*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin*
*birinci müavini* ***Bəxtiyar Məmmədov*** *sədrlik edir.*

**Sədrlik edən.** Hörmətli deputatlar, hörmətli media nümayəndələri, hamınızı salamlayıram.

Bu gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2026-cı il yaz sessiyasının səkkizinci iclası keçirilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin iclasında 42 deputat iştirak edir.

| **Qeydiyyat** | (saat 11.02 dəq.) |
|---|---|
| İştirak edir | 42 |
| Yetərsay | 31 |

Beləliklə, iclas öz işinə başlamağa səlahiyyətlidir.

Bugünkü iclasın gündəliyinə 3 məsələ daxil edilmiş və sizlərə təqdim olunmuşdur. Xahiş edirəm, gündəliyə münasibət bildirəsiniz.

Hesablayıcı komissiyadan xahiş olunur, səsləri hesablayıb məlumat versin.

| **Səsvermənin nəticələri** | (saat 11.03 dəq.) |
|---|---|
| Lehinə | 42 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 42 |

Nəticə: Qəbul edildi

**Sədrlik edən.** Buyurun, Bəhruz müəllim!

**B.Məmmədov,** *Ali Məclisin Hesablayıcı komissiyasının sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Səsvermədə iştirak edən 42 deputat gündəliyin lehinə səs vermiş, əleyhinə və bitərəf olan yoxdur.

**Sədrlik edən.** Çox sağ olun!

Gündəlik qəbul olundu.

Gündəlikdə duran birinci məsələ “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi hüququnun əlavə təminatları haqqında” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin üçüncü oxunuşda müzakirəsidir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 20.6-cı maddəsinə əsasən Hüquq siyasəti komitəsi tərəfindən üçüncü oxunuş üçün hazırlanaraq göndərilmiş qanun layihəsi baxılması üçün Ali Məclisin plenar iclasının gündəliyinə salınıb.

Gündəliyin birinci məsələsi ilə bağlı məlumat verməsi üçün söz Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyevə verilir.

Buyurun, Əjdər müəllim!

**Ə.Əliyev,** *Ali Məclisin Hüquq siyasəti komitəsinin sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Hörmətli sessiya iştirakçıları!

“Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi hüququnun əlavə təminatları haqqında” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi Daxili Nizamnaməyə uyğun olaraq, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 21 aprel 2026-cı il tarixdə keçirilən plenar iclasında səsverməyə qoyularaq qəbul edilmiş və Ali Məclisin Daxili Nizamnaməsinin 20.5-ci maddəsinə uyğun olaraq müzakirə zamanı müəyyənləşdirilmiş daxili ziddiyyətlərin aradan qaldırılması və redaktə edilmək üçün Hüquq siyasəti komitəsinə təqdim olunmuşdur.

Hüquq siyasəti komitəsi tərəfindən qanun layihəsinin üçüncü oxunuşa hazırlanması məqsədi ilə 4 may 2026-cı il tarixdə komitənin iclası keçirilmiş, komitə iclasında deputatlar tərəfindən layihə ilə bağlı təklif və ya irad bildirilməmişdir. Qanun layihəsi Daxili Nizamnaməyə uyğun olaraq üçüncü oxunuşda baxıla bilər.

Sağ olun!

**Sədrlik edən.** Sağ olun, Əjdər müəllim!

Hörmətli deputatlar!

Qanun layihəsi ilə əlaqədar deputatlardan çıxış etmək istəyən və ya əlavə təklifi olan varmı?

Buyurun, Asəf müəllim!

**A.Orucov.** Hörmətli Bəxtiyar müəllim!

Hörmətli deputatlar!

Üçüncü oxunuşda müzakirəyə çıxarılan “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi hüququnun əlavə təminatları haqqında” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi dövlət idarəçiliyində qarşılıqlı fəaliyyətin daha aydın və səmərəli mexanizmlərlə tənzimlənməsinə yönəlmişdir.

Layihənin mahiyyətinə diqqət yetirdikdə görürük ki, burada əsas məqsəd etimad institutunun daha işlək və praktik mexanizm kimi tətbiqinə şərait yaratmaqdır. Bu yanaşma idarəetmədə qarşılıqlı əlaqələrin daha çevik və səmərəli qurulmasına xidmət edir.

Nazirlər Kabinetinin fəaliyyətinə dair məlumatların Ali Məclisə təqdim olunması idarəetmənin ümumi nəticələrinin müzakirəsi baxımından əhəmiyyətlidir. Bu, gələcək fəaliyyət istiqamətlərinin daha dəqiq müəyyən olunmasına imkan yaradır, eyni zamanda sorğu mexanizmlərinin hüquqi çərçivədə tənzimlənməsi məsələlərə daha operativ və məqsədyönlü yanaşmanı təmin edir.

Layihədə diqqət çəkən digər məqamlardan biri də idarəetmədə sabitliyin qorunmasına verilən önəmdir. Seçkilərə yaxın dövrdə və ya eyni məsələ üzrə qısa fasilələrlə etimad məsələsinin təkrar gündəmə gətirilməsinin qarşısının alınması idarəetmədə davamlılığı təmin edir və bu, institutu təsiredici vasitəyə çevrilməkdən qoruyur.

Ümumilikdə, təqdim olunan dəyişikliklər dövlət idarəçiliyində qarşılıqlı fəaliyyətin daha səmərəli qurulmasına, eyni zamanda ümumi iş prosesinin keyfiyyətinin artırılmasına töhfə verəcəkdir. Hesab edirəm ki, layihə hüquqi baxımdan əsaslandırılmışdır və müasir idarəetmə yanaşmalarına uyğundur.

Diqqətinizə görə təşəkkür edirəm!

**Sədrlik edən.** Sağ olun, Asəf müəllim!

Əlavə çıxış etmək istəyən varmı?

Buyurun, Xumar xanım!

**X.Məmmədova.** Hörmətli Bəxtiyar müəllim!

Hörmətli iclas iştirakçıları!

Bu qanun dövlət idarəçiliyində hüquqi əsasların daha da möhkəmləndirilməsi, səlahiyyətlərin icrasında ardıcıllığın təmin olunması və institusional məsuliyyət mexanizmlərinin təkmilləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Məlum olduğu kimi, Naxçıvan Muxtar Respublikasında dövlət hakimiyyəti orqanlarının fəaliyyəti Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının Konstitusiyalarına, eləcə də qüvvədə olan digər normativ hüquqi aktlara əsaslanır. Qanunvericilik və icra sahəsində fəaliyyət göstərən qurumların arasında qarşılıqlı fəaliyyətin aydın və səmərəli şəkildə tənzimlənməsi idarəetmənin ümumi nəticələrinə müsbət təsir göstərir.

Təqdim olunan qanun layihəsi də məhz bu baxımdan münasibətlərin hüquqi əsaslarını daha da dəqiqləşdirməyə, fəaliyyət istiqamətlərini konkretləşdirməyə və qarşılıqlı iş mexanizmlərini təkmilləşdirməyə yönəlmişdir. Layihədə nəzərdə tutulan müddəalar idarəetmədə aydınlıq və şəffaf yanaşmanın təmin olunmasına, qərarların qəbulunda ardıcıllığın gücləndirilməsinə xidmət edir.

Hesab edirəm ki, bu qanun layihəsinin qəbul edilməsi Naxçıvan Muxtar Respublikasında idarəetmə proseslərinin daha da təkmilləşdirilməsinə və fəaliyyətin səmərəliliyinin artırılmasına müsbət təsir göstərəcəkdir.

Hörmətli həmkarlar, sizi bu qanun layihəsini dəstəkləməyə və lehinə səs verməyə dəvət edirəm.

Diqqətinizə görə minnətdaram!

**Sədrlik edən.** Sağ olun, Xumar xanım!

Deputatlardan əlavə çıxış etmək istəyən və ya təklifi olan varmı?

Yoxdur.

Hörmətli deputatlar!

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 21.1-ci maddəsinə əsasən qanun layihəsinin üçüncü oxunuşu zamanı qanun layihəsi bütövlükdə səsə qoyulmalıdır.

Deputatlardan kim "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi hüququnun əlavə təminatları haqqında" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin qəbul edilməsinə tərəfdardırsa, xahiş edirəm səs versin.

Hesablayıcı komissiyadan xahiş olunur, səsləri hesablayıb məlumat versin.

| **Səsvermənin nəticələri** | (saat 11.09 dəq.) |
|---|---|
| Lehinə | 42 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 42 |

Nəticə: Qəbul edildi

**Sədrlik edən.** Buyurun, Bəhruz müəllim!

**B.Məmmədov,** *Ali Məclisin Hesablayıcı komissiyasının sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Səsvermədə iştirak edən 42 deputat "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi hüququnun əlavə təminatları haqqında" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin lehinə səs vermiş, əleyhinə və bitərəf olan yoxdur.

**Sədrlik edən.** Çox sağ olun!

Beləliklə, qanun qəbul edildi.

Gündəlikdə duran ikinci məsələ "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin üçüncü oxunuşda müzakirəsidir.

Bildirirəm ki, "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikası Qanununa "Deputatın köməkçisi" adlı yeni bir maddənin (21-1-ci maddə) əlavə edilməsini nəzərdə tutan qanun layihəsi Ali Məclisin 18 fevral və 4 mart 2026-cı il tarixli plenar iclaslarında birinci və ikinci oxunuşlarda müzakirə olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 20.6-cı maddəsinə əsasən Hüquq siyasəti komitəsi tərəfindən üçüncü oxunuş üçün hazırlanaraq göndərilmiş qanun layihəsi baxılması üçün Ali Məclisin plenar iclasının gündəliyinə salınıb.

Gündəliyin ikinci məsələsi ilə bağlı məlumat verməsi üçün söz Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyevə verilir.

Buyurun, Əjdər müəllim!

**Ə.Əliyev,** *Ali Məclisin Hüquq siyasəti komitəsinin sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Hörmətli sessiya iştirakçıları!

"Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 4 mart 2026-cı il tarixdə keçirilən plenar iclasında Daxili Nizamnaməyə uyğun olaraq ikinci oxunuşda qəbul edilmişdir.

Ali Məclisin Daxili Nizamnaməsinin 20.6-cı maddəsinə əsasən qanun layihəsinin üçüncü oxunuşa hazırlanması üçün aparıcı komitəyə təqdim edilmişdir və komitənin 4 may 2026-cı il tarixdə keçirilən iclasında layihə ilə bağlı deputatlar tərəfindən hər hansısa əlavə təklif və ya irad olmamışdır. Qanun layihəsi Daxili Nizamnaməyə uyğun olaraq üçüncü oxunuşda baxıla bilər.

Sağ olun!

**Sədrlik edən.** Sağ olun, Əjdər müəllim!

Qanun layihəsi ilə əlaqədar deputatlardan çıxış etmək istəyən və ya əlavə təklifi olan varmı?

Buyurun, Rauf müəllim!

**R.Cəfərov.** Hörmətli Bəxtiyar müəllim!

Hörmətli iclas iştirakçıları!

Müzakirəyə təqdim olunan "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununa təklif edilən dəyişikliklər deputat fəaliyyətinin hüquqi əsaslarının dəqiqləşdirilməsi və ümumi işin daha səmərəli təşkili baxımından əhəmiyyətlidir. Təklifləri əsaslı hesab edir və dəstəkləyirəm.

Məlum olduğu kimi, deputatın hüquq və vəzifələri müvafiq konstitusion və normativ aktlarla müəyyən olunur. Bu baxımdan qanunun müasir tələblərə uyğun təkmilləşdirilməsi vacibdir.

Təklif olunan dəyişikliklər, xüsusilə deputat köməkçisi institutunun hüquqi əsaslarının daha da dəqiqləşdirilməsinə yönəlib. Deputat köməkçiləri vətəndaş müraciətlərinin qəbulu, materialların hazırlanması və informasiya təminatı kimi məsələlərdə mühüm rol oynayır. Bu fəaliyyətin daha aydın tənzimlənməsi işin operativliyini və ardıcıllığını artırır.

Eyni zamanda, rəqəmsal mühitdə daxil olan müraciətlərin operativ işlənməsi deputat fəaliyyətinin vacib hissəsinə çevrilib. Bu baxımdan deputat köməkçilərinin funksional imkanlarının genişləndirilməsi və onların fəaliyyətinin hüquqi əsasda tənzimlənməsi qanunvericilik prosesinin müasir tələblərə uyğunlaşdırılmasına xidmət edir.

Nəticə etibarilə, dəyişikliklər deputat fəaliyyətinin təşkilini təkmilləşdirəcək, deputat–seçici əlaqələrinə müsbət təsir göstərəcəkdir.

Hesab edirəm ki, layihənin qəbul edilməsi Naxçıvan Muxtar Respublikasında qanunvericilik hakimiyyətinin fəaliyyətinin daha səmərəli təşkilinə, hüquqi sabitliyin möhkəmləndirilməsinə və parlament institutunun funksional imkanlarının genişləndirilməsinə mühüm töhfə verəcəkdir.

Hörmətli həmkarlar, sizi layihəni dəstəkləməyə və layihənin lehinə səs verməyə dəvət edirəm.

Diqqətinizə görə sağ olun!

**Sədrlik edən.** Sağ olun, Rauf müəllim!

Əlavə çıxış etmək istəyən varmı?

Yoxdur.

Hörmətli deputatlar!

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 21.1-ci maddəsinə əsasən qanun layihəsinin üçüncü oxunuşu zamanı qanun layihəsi bütövlükdə səsə qoyulmalıdır.

Deputatlardan kim “Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin qəbul edilməsinə tərəfdardırsa, xahiş edirəm səs versin.

Hesablayıcı komissiyadan xahiş olunur, səsləri hesablayıb məlumat versin.

| **Səsvermənin nəticələri** | (saat 11.14 dəq.) |
|---|---|
| Lehinə | 42 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 42 |

Nəticə: Qəbul edildi

**Sədrlik edən.** Buyurun, Bəhruz müəllim!

**B.Məmmədov,** *Ali Məclisin Hesablayıcı komissiyasının sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Səsvermədə iştirak edən 42 deputat “Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin lehinə səs vermiş, əleyhinə və bitərəf olan yoxdur.

**Sədrlik edən.** Çox sağ olun!

Beləliklə, qanun qəbul edildi.

Gündəlikdə duran üçüncü məsələ “Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin birinci oxunuşda müzakirəsidir.

Bildiyimiz kimi, “Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2026-cı il 2 fevral tarixli 340-VIIKQD nömrəli Konstitusiya Qanunu ilə Naxçıvan Muxtar Respublikasının Konstitusiyasının 13-cü, 14-cü, 25-ci və 32-ci maddələrində edilən dəyişikliklərə və yeni əlavə edilmiş 28-1-ci maddəyə uyğun olaraq “Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi zərurəti yaranmış və bununla bağlı qanun layihəsi hazırlanmışdır. Qanun layihəsi deputatlara təqdim olunmuşdur.

Hüquq siyasəti komitəsinin 4 may 2026-cı il tarixli iclasında müvafiq layihə komitə sədrinin, sədr müavini və üzvlərinin, həmçinin Ali Məclis Aparatının nümayəndələrinin iştirakı ilə müzakirə edilmişdir.

Qanun layihəsi barədə məlumat vermək və komitənin rəyini bildirmək üçün söz Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyevə verilir.

Buyurun, Əjdər müəllim!

**Ə.Əliyev,** *Ali Məclisin Hüquq siyasəti komitəsinin sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Hörmətli sessiya iştirakçıları!

“Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi ilə “Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda 4 maddə üzrə dəyişikliklərin edilməsi nəzərdə tutulur.

“Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanunu 10 mart 2026-cı il tarixdə qüvvəyə minmişdir. Eyni zamanda, “Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2026-cı il 2 fevral tarixli 340-VIIKQD nömrəli Konstitusiya Qanununun tətbiqi barədə Azərbaycan Respublikasının Prezidenti Sərəncam imzalanmışdır. Sərəncamda Azərbaycan Respublikasının Nazirlər Kabinetinə Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2026-cı il 2 fevral tarixli 340-VIIKQD nömrəli Konstitusiya Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etməsi tapşırılmışdır.

Naxçıvan Muxtar Respublikasının normativ hüquqi bazasının qeyd edilən Konstitusiya Qanununa uyğunlaşdırılması prosesinə də başlanmışdır. Həm “Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda, həm də “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin komitələri haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişikliklərin edilməsi, eyni zamanda "Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun ləğv edilməsi məhz həmin normativ hüquqi aktların Konstitusiya Qanununa uyğunlaşdırılması prosesinin mühüm tərkib hissəsidir.

Bu gün təqdim edilən “Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi də qanunun “Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununun tələblərinə uyğunlaşdırılması məqsədilə hazırlanmışdır.

Layihəyə əsasən “Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda aşağıdakı dəyişikliklər edilir:

2.1-ci maddədə “maddəsinə” sözü “maddəsinin I hissəsinə” sözləri ilə əvəz edilsin.

İlk növbədə qeyd etmək lazımdır ki, Konstitusiyanın əvvəlki redaksiyada verilmiş 13-cü maddəsi yalnız seçki hüququndan bəhs edir və bir əsas hissədən ibarətdir. Həmin maddədə seçki hüququnun bərabər, birbaşa, şəxsi, gizli və sərbəst səsvermə yolu ilə həyata keçirilməsi məsələləri öz əksini tapmışdır. Lakin dəyişikliklə artıq seçkilərin Ali Məclis sədrinin təklifi əsasında Azərbaycan Respublikasının Prezidenti tərəfindən təyin edilməsi ilə bağlı maddəyə ikinci hissə də əlavə edilmişdir. Bu isə artıq qanunda həmin maddəyə ümumi deyil, birbaşa birinci hissəsinə istinad edilməsi zərurəti yaratmışdır ki, məhz bu dəyişiklik həmin qeyri-müəyyənliyi və tətbiq zamanı hər hansı bir şərhin aradan qaldırılmasına istiqamətlənmişdir.

8-ci maddə üzrə:

8.1-ci maddənin birinci və ikinci cümlələri aşağıdakı redaksiyada verilsin:

“8.1. Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 13-cü maddəsinin II hissəsinə, 14-cü maddəsinin II hissəsinə, 28-1-ci maddəsinin II hissəsinin ikinci cümləsinə və 32-ci maddəsinin I hissəsinin 1-1-ci bəndinə uyğun olaraq yeni çağırışın deputat seçkiləri gününü Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin təklifləri əsasında Azərbaycan Respublikasının Prezidenti təyin edir. Seçkilərin təyin edilməsi haqqında sərəncam səsvermə gününə azı 60 gün qalmış rəsmi dərc edilir.”;

8.2-ci maddənin ikinci cümləsində “qərar” sözü “sərəncam” sözü ilə əvəz edilsin.

Buradakı dəyişikliklər əsasən seçkilərin təyin edilməsi mexanizmi ilə bağlıdır. Əvvəlki qaydada bu səlahiyyət Naxçıvan Muxtar Respublikasının Ali vəzifəli şəxsində cəmləşdiyi halda, yeni yanaşma bu prosesi iki mərhələli mexanizmə çevirir: təşəbbüs Ali Məclisin sədrindən gəlir, yekun qərar isə Azərbaycan Respublikasının Prezidenti tərəfindən qəbul olunur. Bu dəyişiklik faktiki olaraq seçki prosesinin başlanğıc nöqtəsini daha yüksək dövlət səviyyəsinə daşıyır və səlahiyyətlərin mərkəzləşdirilməsi tendensiyasını gücləndirir. Eyni zamanda hüquqi aktın forması “qərar”dan “sərəncam”a dəyişdirilərək onun hüquqi xarakteri və qəbul edilmə qaydası da yenilənir. Bu yanaşma konstitusion əlaqələndirməni genişləndirməklə yanaşı, siyasi məsuliyyətin bölgüsünü də fərqli müstəviyə keçirir.

22.2-ci maddənin ikinci cümləsində “Naxçıvan Muxtar Respublikasının Ali vəzifəli şəxsinin” sözləri “Ali Məclis sədrinin” sözləri ilə əvəz edilsin.

Seçki komissiyalarının formalaşdırılması qaydasında edilən dəyişiklik də institusional baxımdan əhəmiyyətlidir. Mərkəzi Seçki Komissiyası üzvlərinin irəli sürülməsi səlahiyyətinin Ali vəzifəli şəxsdən Ali Məclisin sədrinə verilməsi seçki idarəçiliyində rol bölgüsünü dəyişir. Bu, bir tərəfdən qanunverici orqanın daxilində qərarvermə imkanlarını genişləndirir, digər tərəfdən isə seçki komissiyalarının formalaşmasında balans və neytrallıq məsələlərini daha həssas müzakirə mövzusuna çevirir.

23.1-ci maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Müharibə şəraitində hərbi əməliyyatların aparılması ilə əlaqədar seçkilərin keçirilməsi mümkün olmadıqda Mərkəzi Seçki Komissiyası Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 14-cü maddəsinin I hissəsinə uyğun olaraq Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinə müraciət edir.”.

Bu müddəa Azərbaycan Respublikası Konstitusiyasında uzun müddət tətbiq edilməsinə baxmayaraq Naxçıvan Muxtar Respublikası Konstitusiyasında öz əksini tapmamışdır. Son dəyişikliklə həmin müddəa da əlavə edilmiş və seçki qanunvericiliyində həmin müddəanın əks olunması vacib hesab edilmişdir. Fövqəladə vəziyyət və ya müharibə şəraitində seçkilərin keçirilməsinin mümkünsüz olduğu hallarda, həmçinin Ali Məclisin səlahiyyət müddəti başa çatdıqdan sonra onun hüquqi statusu ilə bağlı qeyri-müəyyənlik mövcud idi. Artıq 23-1-ci maddəyə, eləcə də Naxçıvan Muxtar Respublikası Konstitusiyanın 14-cü maddəsinin I hissəsinə edilmiş dəyişikliklər nəticəsində bu sahədəki anlaşılmazlıq və hüquqi qeyri-müəyyənlik aradan qaldırılmış olacaqdır.

Bundan əlavə, qanuna yeni daxil edilən müddəa müharibə şəraiti və fövqəladə hallar zamanı yarana biləcək hüquqi boşluqların qarşısının alınması baxımından da mühüm əhəmiyyət daşıyır.

Ümumilikdə, təklif olunan dəyişikliklər seçki sisteminin hüquqi əsaslarının daha dəqiq formalaşdırılmasına, idarəetmə mexanizmlərinin yenilənməsinə və institusional əlaqələrin yenidən qurulmasına yönəlib. Burada əsas diqqət çəkən məqam səlahiyyətlərin qismən mərkəzləşdirilməsi, normativ istinadların konkretləşdirilməsi və fövqəladə hallara uyğun hüquqi mexanizmlərin yaradılmasıdır.

Əminəm ki, təklif edilən layihə Naxçıvan Muxtar Respublikasında Ali Məclisə seçkilərin hazırlanıb keçirilməsinə mühüm töhfə verəcəkdir.

“Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi 28 aprel 2026-cı il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinə daxil olmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin 4 may 2026-cı il tarixdə keçirilən iclasında qanun layihəsi Hüquq siyasəti komitəsinin üzvlərinin, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının əməkdaşlarının iştirakı ilə geniş müzakirə edilmişdir. Komitə iclasında qanun layihəsi barədə ətraflı məlumat verilmiş, layihə iclas iştirakçılarının müzakirəsinə təqdim olunmuşdur.

“Naxçıvan Muxtar Respublikası Ali Məclisinin komitələri haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun 6.1-ci maddəsinə əsasən komitə müzakirə etdiyi məsələlərə dair qərar və rəylər qəbul edir. Həmin qanunun 8.2.1-ci maddəsinin tələbinə görə Hüquq siyasəti komitəsi Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər ilə bağlı qanun layihələrini hazırlayır və ya təqdim olunmuş qanun layihələrinə dair rəy verir. Buna müvafiq olaraq komitə iclasında rəy layihəsi hazırlanmış, səsvermə keçirilmiş və rəy yekdilliklə qəbul edilmişdir.

İcazənizlə, rəyi diqqətinizə çatdırıram.

Yeddinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin rəyi.

“Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi “Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununun müddəalarına uyğunlaşdırma məqsədilə hazırlanmışdır. Qanun layihəsi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinə daxil olmuş, komitənin 4 may 2026-cı il tarixli iclasında komitənin sədri, sədr müavini və üzvlərinin, eləcə də Ali Məclis Aparatının əməkdaşlarının iştirakı ilə müzakirə olunmuşdur. Qanun layihəsi “Normativ hüquqi aktlar haqqında” Naxçıvan Muxtar Respublikasının 2011-ci il 19 iyul tarixli 6-IVQN nömrəli Qanununun tələblərinə uyğun hazırlanmışdır.

Yuxarıda qeyd edilənləri və “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin komitələri haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun 6.2-ci maddəsini nəzərə alaraq Ali Məclisin Hüquq siyasəti komitəsi qeyd edir ki, qanun layihəsi Ali Məclisin iclasının gündəliyinə daxil edilmək üçün təqdim oluna bilər.

Çox sağ olun!

**Sədrlik edən.** Sağ olun, Əjdər müəllim!

Qanun layihəsi ilə əlaqədar deputatlardan çıxış etmək istəyən və ya əlavə təklifi olan varmı?

Buyurun, Rafiq müəllim!

**R.Novruzov,** *Ali Məclisin İqtisadi siyasət komitəsinin sədr müavini.*

Hörmətli Bəxtiyar müəllim!

Hörmətli iclas iştirakçıları!

Bu gün müzakirəyə çıxarılan qanun layihəsi seçki qanunvericiliyinin təkmilləşdirilməsi və müasir tələblərə uyğunlaşdırılması məqsədi daşıyır. Xüsusilə, Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına edilən dəyişikliklərdən sonra bu sahədə müvafiq düzəlişlərin aparılması zəruri idi.

Qanun layihəsinə baxıldıqda aydın olur ki, təklif edilən dəyişikliklər seçki qanunvericiliyinin ayrı-ayrı maddələrinin daha dəqiq hüquqi ifadələrlə təkmilləşdirilməsinə, terminoloji uyğunsuzluqların aradan qaldırılmasına və seçki prosesinin hüquqi əsaslarının mövcud konstitusion tələblərə uyğunlaşdırılmasına yönəlmişdir. Bu dəyişikliklər həm normativ aktların tətbiqində vahid təcrübənin formalaşmasına, həm də seçki prosesində hüquqi müəyyənliyin gücləndirilməsinə xidmət edir.

Nəticə etibarilə, təqdim olunan dəyişikliklər seçki sisteminin daha aydın və çevik işləməsinə töhfə verəcəkdir.

Diqqətiniz üçün sağ olun!

**Sədrlik edən.** Sağ olun, Rafiq müəllim!

Əlavə çıxış etmək istəyən varmı?

Yoxdur.

Hörmətli deputatlar!

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 19.4.1-ci maddəsinə əsasən qanun layihəsinə birinci oxunuşda baxılması nəticəsində Ali Məclisin protokol qaydasında qəbul edilən qərarı ilə layihə birinci oxunuşda qəbul edilir və onun üzərində iş davam etdirilir.

Deputatlardan kim "Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin birinci oxunuşda qəbul olunmasına tərəfdardırsa, xahiş edirəm səs versin.

Hesablayıcı komissiyadan xahiş olunur, səsləri hesablayıb məlumat versin.

| **Səsvermənin nəticələri** | (saat 11.25 dəq.) |
|---|---|
| Lehinə | 42 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 42 |

Nəticə: Qəbul edildi

**Sədrlik edən.** Buyurun, Bəhruz müəllim!

**B.Məmmədov,** *Ali Məclisin Hesablayıcı komissiyasının sədri.*

Hörmətli Bəxtiyar müəllim!

"Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin birinci oxunuşu ilə bağlı səsvermədə iştirak edən 42 deputat lehinə səs vermiş, əleyhinə və bitərəf olan yoxdur.

**Sədrlik edən.** Çox sağ olun!

Beləliklə, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar!

Bununla da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2026-cı il yaz sessiyasının növbəti iclası öz işini başa çatdırdı.

Sağ olun!